2020-ci ilin yanvar ayında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 93691,7 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur. Sənayedə istehsalın 95,3 faizi malların, 4,7 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 5886,6 min manatlıq, qeyri-dövlət sektorunda 87805,1 min manatlıq məhsul istehsal edilmişdir.

2019-cu ildə muxtar respublikanın sənaye müəssisələrində 16763 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci illə müqayisədə 1,2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci illə müqayisədə 7,2 faiz artaraq 416 manat olmuşdur.